Deloitte.

Azərbaycan | Risk Məsləhətləri | 04 Oktyabr 2023



# Sentyabr ayı üçün kiber və texnologiya xəbərləri

## Azərbaycan

### Azərbaycan mobil internetin sürətinə görə daha 2 pillə irəliləyib

Bu ilin avqust ayında Azərbaycan sabit genişzolaqlı internetin median sürətinə görə 28,7 Mb/s sürətlə 182 ölkə arasında 120-ci yerdə qərarlaşıb.

Mənbə: xeberler.az 18 Sentyabr 2023

### Şəbəkəyə qoşulan 12,5 mindən çox Beynəlxalq Mobil Avadanlıq Kimliyi (İMEİ) koduna "klon" statusu verilərək blok edilib

"AzInTelecom" MMC Azərbaycana gətirilən mobil cihazların surəti köçürülmüş İMEİ kodlarla qeydiyyatdan keçirilməsinə qarşı intensiv mübarizə tədbirlərini davam etdirir və 12 589 İMEİ kodu onlara "klon" statusu verilməklə bloklanıb.

Mənbə: xeberler.az 19 Sentyabr 2023

### Azərbaycanda dövlət domen adlarına bənzədilmiş saxta domenlərin sayı açıqlandı

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin idarə rəisi Azərbaycanın dövlət qurumlarının domenlərinə oxşar 52 saxta domen aşkarlandığını qeyd edib.

Mənbə: xeberler.az 23 Sentyabr 2023

### Mərkəzləşdirilmiş Antivirus Sistemi 2,8 milyon zərərverici virusu bloklayıb

Dövlət Qurumlarının İnformasiya Texnologiyaları rəhbərlərinin II Zirvə Toplantısında Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) idarə rəisi çıxışında qeyd edib ki, birinci yarımil ərzində dövlət qurumlarına yönləndirilmiş 2 milyon 808 min zərərverici virus bloklanıb.

Mənbə: xeberler.az 23 Sentyabr 2023

### Dövlət qurumlarının informasiya ehtiyatında boşluqlar üzrə 373 hesabat hazırlanıb

Azərbaycanda dövlət qurumlarının informasiya sisteminin auditi zamanı 2023-cü ilin birinci yarısında informasiya ehtiyatında aşkarlanan boşluqlar üzrə 373 hesabat hazırlanıb. Müvafiq hesabatlarla dövlət qurumlarına müraciət edilib, boşluqların aradan qaldırılması ilə bağlı tövsiyələr verilib

Mənbə: xeberler.az 23 Sentyabr 2023

# Qazaxıstan

### Şərqi Qazaxıstan vilayətindən olan internet fırıldaqçıları qazaxıstanlıları 80 milyon tengeyə aldadıblar

Şərqi Qazaxıstan vilayətinin kriminal polisinin "Cyberpol" əməkdaşları internet dələduzluğu faktları üzrə cinayət işi açıblar. Fırıldaqçılar insanları 80 milyon tengeyə aldadıblar.

Mənbə: profit.kz 22 Sentyabr 2023

### Qazaxıstanlıların şəxsi məlumatlarının sızmasına görə informasiya sistemlərinin sahibləri cəzalandırılacaq

Sosial şəbəkədə qazaxıstanlıların şəxsi məlumatlarını üç il ərzində toplayan və sonra yayan iki çatbot aşkar edilib.

Mənbə: profit.kz 28 Sentyabr 2023

# Özbəkistan

## "my.gov.uz"-da xidmətlərin sayı 700-ə çatdırılacaq

Prezidentin Sərəncamına əsasən, 2024-cü il iyunun 1-dən yeni rəqəmsal xidmətlər, bir qayda olaraq, ilk növbədə, Vahid İnteraktiv Dövlət Xidmətləri Portalının mobil əlavəsində tətbiq olunacaq. Vahid Portalda göstərilən xidmətlərin sayı 700-ə çatdırılacaq, onların avtomatlaşdırılması səviyyəsi isə 65 faizə çatdırılacaq.

Mənbə: uzdaily.uz 20 Sentyabr 2023

## Dövlət Təhlükəsizliyi Xidməti sədrinin "Özbəkistanın informasiya obyektlərinin kibertəhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi" haqqında əmri qəbul edilib.

Qiymətləndirmə Dövlət Təhlükəsizliyi Xidmətində kibertəhlükəsizlik və mühüm informasiya infrastrukturu obyektlərinin rəhbərlərinin müraciəti əsasında həyata keçirilir. Həmçinin, qiymətləndirmə səlahiyyətli orqanın təşəbbüsü və ya onun göstərişi ilə "Kibertəhlükəsizlik Mərkəzi" Dövlət Unitar Müəssisəsinin göstərişi ilə aparıla bilər. Qiymətləndirmənin nəticələrinə əsasən, aradan qaldırılması tələb olunan çatışmazlıqları göstərən hesabat tərtib edilir.

Mənbə: uzdaily.uz 26 Sentyabr 2023

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL (“Deloitte Qlobal”) və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə “Deloitte Şəbəkəsi”) hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.